**DOI:** https://doi.org/10.59849/2957-3882.2023.1.56
**UOT: 82-3.512.162**

# AZƏRBAYCAN TÜRKOLOGİYASINDA QADIN MÖVZUSU

**Vüqar MƏMMƏDOV***

***Açar sözlər:*** *türkçülük, qadın mövzusu, gender problemi, gender bərabərliyi, qadın hüquqları*

## XÜLASƏ

Türkiyə və Mərkəzi Asiya ölkələrinin ictimai fikrində və ədəbiyyatında qadın mövzusu həmişə türkoloq alimlərimizin diqqət mərkəzində olub. Yaradıcılıqlarında qadın problemlərinə xüsusi yer verən bir sıra türk yazıçıları öz əsərlərində qadının ailə və cəmiyyətdə rolu haqqında öz baxışlarını, onların ailədə, cəmiyyətdə üzləşdikləri problemləri, qarşılarına çəkilən süni sədləri oxucuya çatdırmağa çalışıblar.

Bu məqalədə bəhsini etdiyimiz mövzu ilə əlaqəli AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda aparılan tədqiqatlar təhlilə cəlb olunur. Xüsusilə bu sahədə ardıcıl araşdırmalar aparmış türkoloq alimlərdən Səriyyə Gündoğdunun "Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü" monoqrafiyasında, Sədaqət Qasımlının "Türkiyə ədəbiyyatında yeni hekayəçilik" kitabında və "Yeni türk hekayəçiliyi və sosial problemlər" mövzusunda tədqiqatında, Xanım Abdullayevanın "XIX əsr türk ədəbiyyatında roman janrının təşəkkülü və inkişafı" mövzusunda dissertasiya işində, Aysel Vəliyevanın "Müstəqillik illərində Mərkəzi Asiya ölkələrində qadın faktoru" və Humay Məmmədovanın "Türk qadın yazıçılarının romanlarında qadına münasibət (Cümhuriyyətə qədərki dövr)" mövzusunda araşdırmalarında qadın problemlərinə toxunmaları nəzərdən keçirilir. Həmçinin məqalədə Şərqşünaslıq İnstitutunun türkoloq alimlərinin bu mövzuda qələmə aldığı məqalələr, bir sıra beynəlxalq elmi konfranslarda səsləndirilən məruzələrdən də bəhs edilir.

## Giriş

Azərbaycan türkologiyasında Türkiyənin ictimai-siyasi həyatı, ədəbiyyatı, araşdırılarkən qadın mövzusu həmişə diqqət mərkəzində olub. Son illər bu mövzuya diqqət daha da artırılıb. Türkoloq alimlər qadın məsələlərinə həsr olunmuş tədqiqatları, çap olunan kitabları, elmi məqalələri, müxtəlif beynəlxalq və respublika səviyyəli konfranslarda, simpoziumlarda məruzələri ilə fəal olublar. Bu tədqiqatlarda qadın hüquqları, qadın azadlığı məsələləri, eyni zamanda ictimai həyatda fəal qadınların fəaliyyəti, ədəbiyyatda qadın yazıçı və şairlərin yaradıcılığı, ədəbi əsərlərdə qadın obrazları və digər mövzular nəzərdən keçirilib.

Bu araşdırmamızda Azərbaycan türkologiyasında qadın mövzusunu nəzərdən keçirərkən əsasən Şərqşünaslıq İnstitutunun türkoloq alimləri tərəfindən son 20 ildə Türkiyədə, Mərkəzi Asiyada ölkələrində qadın hüquqları, qadın azadlığı, qadının cəmiyyətdə yeri barədə aparılan tədqiqatlara, çap olunan kitablara, yazılan məqalələrə, konfrans və simpoziumlarda səsləndirilən məruzələrə diqqət yetirmişik.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Səriyyə Gündoğdu türk ədəbiyyatında qadın mövzusunda araşdırmaları ilə seçilən tədqiqatçılardandır. Türkoloq alim 2011-ci ilin martında Ankarada keçirilmiş Beynəlxalq M.Akif Ərsoy Simpoziumunda "M.Akif Ərsoy əsərlərində ailə və qadın prob-

* *AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, filologiya üzrə fəlsəfə doktoru.*
*E-mail: vm12345@mail.ru*

lemi" mövzusunda məruzə edib. Bu mövzu S.Gündoğdunun fəlsəfə doktorluğu dissertasiyası əsasında 2012-ci ildə çapdan çıxmış "Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü" adlı kitabının "İctimai problemlərin qoyuluşu və bədii həlli" adlanan ikinci fəslinin "Cəmiyyətdə mənəvi dəyərlər" başlıqlı ikinci bölməsində yer alır.

S.Gündoğdu qeyd edir ki, M.Akif yaşadığı dövrdə cəmiyyətin zəiflədiyini, gələcək aqibətinin heç də könül açan olmayacağını görüb mütəəssir olurdu. Cəmiyyətdə yaranan problemlərin əsasının da ailə və qadın münasibətləri ilə bağlı olduğunu düşünən Mehmed Akif bu məsələlərin həllində məhz qadının müstəsna rolunu qeyd etmişdir (1, s.110).

Tədqiqatçı M.Akifin qadının cəmiyyətdə zavallı vəziyyətə düşməsinin iki əsas səbəbini göstərdiyini qeyd edir:

1. Cahillik nəticəsində cəmiyyətdə İslamın yanlış anlaşılması.
2. Şərq aləmində qadına təzyiq (qadına qarşı kobud davranış, hüquqsuzluq və sairə) (1, s.113)

Hər iki məsələni M.Akifin sərt və ironik dildə tənqid etdiyini yazan S.Gündoğdu, şairin İslamiyyətdə ailədaxili və fərdlərarası olan hörmət məsələsinin cəmiyyətdə pozulduğunu əsərlərində yaratdığı ədəbi qəhrəmanın və hadisələrin köməyi ilə mükəmməl şəkildə əks etdirdiyini qeyd edir. Tədqiqatçı şairin ər-arvad münasibətini, qadının ailədə və cəmiyyətdəki yeri kimi sosial məsələni necə əks etdirməsini onun əsərlərindən gətirdiyi misallar əsasında göstərir. Qadının döyülməsini və boşanmanı Allahın əmri kimi qəbul edənlərə qarşı çıxmaqla yaşadığı cəmiyyəti xilas etməyə çalışan M.Akifin qadına yüksək qiymət verdiyini bildirən tədqiqatçı, şairin övlad tərbiyəsinin məhz anadan olduğunu söyləməsini qeyd edir.

Tədqiqatçı M.Akifin qadın hüquqlarının qorunmasının qanuni yollarını göstərdiyini və milləti yatdığı qəflət yuxusundan oyatmağa çalışdığını şeirlərindən nümunə gətirməklə göstərir.

Səriyyə Gündoğdu qadın mövzusunda həmçinin 2017-ci ildə Bakıda akademik Ziya Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" (Ziya Bünyadov qiraətləri) mövzusunda beynəlxalq konfransda "Osmanlı dövlətində modernləşmə prosesində qadın problemləri: ədiblərin qələmindən (1908-ci il "Tanin" qəzeti əsasında)", 2022-ci ildə Şimali Kipr Türk Cümhuriyyətinin Girnə şəhərində keçirilmiş Elmi araşdırmalar və innovasiyalar Konqresində "Almaniyada türk qadın yazarlar" adlı məruzələrlə çıxış edib.

Filologiya üzrə fəlsəfə doktoru Sədaqət Qasımlının 2013-cü ildə apardığı "Yeni türk hekayəçiliyi və sosial problemlər" mövzusunda tədqiqatda Halide Edib, Suat Derviş, Şükufe Nihal Güziden Sabri, Perihan Ömer, Mükerrem Kamil Su, Kerime Nadir, Halide Nusret Zorlutuna, Nezihe Meric, Leyla Erbil, Sevgi Soysal, Selcuk Baran, Afət İlqaz, Sevim Burak, Füruzan, Sevinc Çokum, Ədalət Ağaoğlu, Nazlı Eray, Tezer Özlü, İnci Aral, Nursel Duruel, Pınar Kür, Ayla Kutlu, Buket Uzuner kimi qadın yazıçıların həyat və yaradıcılıqları da tədqiq və təhlil olunub, onların hekayələrində əksini tapan sosial problemlərdən, qadın məsələlərindən bəhs edilib.

Bu yazıçıların bir çoxunun yaradıcılığının təhlili, eləcə də əsərlərində qadın məsələlərinə münasibət alimin 2019-cu ildə işıq üzü görən "Türkiyə ədəbiyyatında yeni hekayəçilik" kitabında təqdim edilib. Əsərin 9-cu bölümü "Yeni türk ədəbiyyatında qadın hekayəçilər" adlanır. Burada ayrı-ayrılıqda Nezihe Meric, Leyla Erbil, Sevgi Soysal, Selcuk Baran, Afət İlqaz, Sevim Burak, Füruzan, Sevinc Çokum, Ədalət Ağaoğlu, Nazlı Eray, Tezer Özlü, İnci Aral, Nursel Duruel, Pınar Kür, Tomris Uyar və Sabahat Emirin yaradıcılığı nəzərdən keçirilib.

Başda Sevgi Soysal olmaqla bir çox yazarların dünyada gedən inkişafa paralel olaraq, qadın azadlığı məsələsini ictimaiyyətin gündəminə təqdim etdiklərini yazan S.Qasımlı, bu mövzunun, ümumiyyətlə qadın yazıçılar tərəfindən daha çox feminizm çərçivəsində qələmə alınıb dəyərləndirildiyini qeyd edir.

S.Qasımlı nəzərə çatdırır ki, Soysal ilk əsərlərindən etibarən qadının psixoloji problemlərini əksər yazarların toxunmağa cəsarət edə bilmədiyi cinsi məsələlər daxil olmaqla bir çox mövzunu ictimaiyyətə təqdim etməyi bacarır. O, qadının müstəqil bir şəxsiyyət olması üçün çalışır. Bu səbəbdən də öz müşahidələrinə söykənərək əsərlərində fərdin və cəmiyyətin çətinliklərindən danışır. O, qadın problemlərindən yazarkən təhsilin əhəmiyyətini vurğulayır. Təhsilli və savadlı qadının öz

gələcəyi ilə bağlı daha doğru qərarlar verəcəyini düşünür. O, cəmiyyətdə cinsi ayrıseçkiliyin aradan qaldırılmasına çalışır. Qadınların öz ağıllarından istifadə edərək öz istedadlarının fərqinə varmalarını onlara təlqin edir (2, s.195).

Neziha Meriçdən yazarkən tədqiqatçı qeyd edir ki, bir çox kitablarında qadın psixologiyasını geniş şəkildə əks etdirən yazıçı "Dumanaltı" kitabındakı hekayələrdə demək olar ki, ictimai ideoloji məsələlərə də yer verir. "Bir Kara Derin Kuyu" kitabındakı hekayələrində qadınlara hüquqlarını tanıdaraq, cəmiyyətdə özlərini təsdiqləmək yollarını göstərməyə çalışır. "Yandırma" kitabındakı son hekayələrində qadın həyatının fonunda ictimai həyatı bürüyən problemləri sənətkarlıqla ədəbiyyata gətirir (2, 171).

Bu qaydada tədqiqatçı digər türk qadın hekayəçilərin də gender probleminə baxışlarını onların öz əsərlərini təhlil etməklə çatdırır.

Türk ədəbiyyatında qadın məsələsinə dair yazılanlar sırasında filologiya üzrə fəlsəfə doktoru Xanım Abdullayevanın 2022-ci ildə fəlsəfə doktorluğu üzrə müdafiə etdiyi "XIX əsr türk ədəbiyyatında roman janrının təşəkkülü və inkişafı" mövzusunda dissertasiya işinin 2-ci fəslinin 4-cü bölməsini əhatə edən mövzuda 2019-cu ildə Şərqşünaslıq İnstitutunun elmi-nəzəri nəşri olan "Şərq araşdırmaları" jurnalının ilk sayında dərc etdirdiyi "Türkiyə romanında qadın imzası" məqaləsi xüsusi diqqətə layiqdir. XIX əsr türk ədəbiyyatının nəsr janrında yazıb yaradan qadın yazıçılarından Fatma Aliyə Topuza həsr olunan məqalədə türk romanında qadın haqlarını və qadınların yaşadıqları problemləri dilə gətirən qadın yazıçıların yeni ədəbiyyatın təməllərini quranlardan olduğu qeyd edilir: "Türkiyə cəmiyyətində və ədəbi həyatında qadının bir şəxsiyyət kimi önə çıxdığı dövr Tənzimatdan (1839) sonra başlamışdır. Bu dövrdən etibarən yeni təfəkkürlü nəsil yetişdirmək yolunda aparılan işlərdən biri də yeni nəslin yetişdirilməsində əvəzsiz rol oynayan qadın və ana faktorunun özünə müstəsna haqların verilməsinə başlanılmışdır" (3, s.112).

XIX əsr türk qadın yazıçılarının feminizmi bir növ qadın haqlarının qoruyucusu kimi qəbul etdiklərini qeyd edən tədqiqatçı, onların əsas tələblərinin qadınların təhsil alması, sosial və maddi azadlıq əldə etmək, uğurlu iş həyatı ilə yanaşı ailə və övlada sahib olmaq, qadına qarşı şiddətə son vermək, cəmiyyətdə gender bərabərliyini təmin etmək və s. bu kimi sosial şərtlərdən ibarət olmasına diqqəti çəkir.

X.Abdullayeva qeyd edir ki, türk qadın yazıçıların və qadın qəhrəmanların ədəbiyyatda önə çəkilməsi, qadını narahat edən fikirlərin, onun daxili iztirablarının, arzularının, bütövlükdə ailə və cəmiyyətdəki mövqeyinin qabardılması kimi mövzular heç də Avropa feminizminin deyil, əsrlərdən bəri türk xanımına verilən yüksək mənəvi dəyərin və İslam dininin ona tanıdığı misilsiz hüquqların münbit şəraitdə yenidən geniş vüsət alması idi (3, s.113).

Qadın məfhumunun bu dönəm ədəbiyyatında belə irəli çəkilməsinin əsas səbəblərindən birinin də məhz qadın yazıçıların meydana çıxması olduğunu bildirən X.Abdullayeva qadının bədii əsərin qəhrəmanı olmaqla yanaşı, o qəhrəmanı yaradan müəllif kimi çıxış etməsinin rolunu xüsusi qeyd edir.

Məqalədə Türkiyə ədəbiyyatının və ümumilikdə islam coğrafiyasının ilk qadın romançısı kimi dəyərləndirilən beş roman müəllifi Fatma Aliyə Topuzun müxtəlif təzyiqlərlə qurulan ailələrin uğursuz sonu, qadının ikinci dəfə sevərək xoşbəxt ailə qura bilməsi kimi sosial mövzular təşkil edən "Mühədərat" romanında bir qadın gözüylə ilk dəfə Osmanlı dövründəki ailə-məişət həyatına yer verməsi baxımından önəmi qeyd edilir, qadın gözündə evlilik, tərəflər arasındakı uyğunluq, sevgi və qarşılıqlı hörmət anlayışları, bir-birini tanıyaraq ailə qurmağın üstün tərəfləri və s. bu kimi mühüm problemlərin işıqlandırıldığı, özünü təsdiq etmək uğrunda mübarizə aparan, işləyən, pul qazanan, maddi cəhətdən kişilərdən asılı olmayan qadın qəhrəman obrazların önə çəkildiyi digər bədii əsərlərindən, eləcə də qadının cəmiyyətdəki mövqeyinə dair sosial səpkili yazılarından da bəhs edilir.

Aysel Vəliyevanın 2019-2020-ci illərdə icra etdiyi "Müstəqillik illərində Mərkəzi Asiya ölkələrində qadın faktoru" mövzusunda plan işinin "Sovet dövrü və sonrakı dövrdə qadınların sosial vəziyyəti" adlanan birinci hissəsində Sovet dövründə, xüsusən, 1917-ci il Sosialist inqilabından sonra və SSRİ-nin dağılmasının ardından qadının cəmiyyətdəki mövqeyi, qadın hüquqları, gender bərabərliyi, qadının seçmə və seçilmə hüquqı, təhsil səviyyəsi və s. kimi məsələlərə toxunulub. "Sosioloji

baxımdan türkmən ailə quruluşu" adlanan ikinci hissədə Mərkəzi Asiya regionunda müstəqil dövlətlərin qurulması zamanı yaranan dəyişikliklərin qadınların mövqeyinə təsirindən, xüsusilə də, türkmən ailə quruluşundan, adət-ənənələrindən, mədəniyyətinin inkişafında qadının rolundan bəhs edilib.

Humay Məmmədova 2020-2021-ci illərdə "Türk qadın yazıçılarının romanlarında qadına münasibət (Cümhuriyyətə qədərki dövr)" mövzusunda tədqiqat aparıb. Tədqiqat işində Əminə Səmiyə və Fatma Aliyənin həyatı, yaradıcılığı elmi-nəzəri baxımdan araşdırılıb. Elmi işdə ilk növbədə yazıçıların yaradıcılıqlarının ümumi səciyyəsi haqqında geniş məlumat verilib. Əminə Səmiyə və Fatma Aliyə yaradıcılığındakı romanlar əsasən qadına münasibət, dövrün qadın problemləri, qadın obrazları əsasında ətraflı təhlil olunub. Təhlil prosesində qadın məsələsi əsas araşdırma obyekti kimi götürülüb.

Bütün bunlarla yanaşı, Şərqşünaslıq İnstitutunun digər türkoloq alimləri də beynəlxalq və respublika miqyaslı konfranslarda qadın mövzusunda məruzə ediblər, nüfuzlu elmi dərgilərdə məqalələr dərc etdiriblər.

Fəlsəfə üzrə fəlsəfə doktoru Esmeralda Həsənovanın 2014-cü ildə AMEA-nın Şərqşünaslıq İnstitutunun elmi-kütləvi nəşri olan "Azərbaycan şərqşünaslığı" jurnalının 1 (11) sayında dərc olunan "Türkiyə ictimai fikrində qadın məsələsi (XIX əsrin sonu - XX əsrin əvvəlləri)" adlı məqaləsində qeyd edilən dövrdə çoxsaylı dərc olunmuş mənbələrə əsaslanaraq Türkiyə ictimai fikrində qadın məsələsi problemi və onun şərhi araşdırılır. Məqalə müəllifi 19-cu əsrin sonlarında və XX əsrin əvvəllərində Türkiyədə müxtəlif modernist ideologiyaların bu ölkənin ictimai fikrində qadın məsələsinə hansı dərəcədə və hansı istiqamətdə təsir etdiyini göstərməyə cəhd edir. Qeyd edilir ki, Türkiyə mütəfəkkirləri, ictimai və siyasi xadimləri qadın məsələsinə təxminən XIX əsrin ortalarından, istər bütövlükdə türk cəmiyyətində, istərsə də ailə münasibətlərində, həyat tərzində, cəmiyyətdə müəyyən dəyişikliklər hiss olunmağa başladığı vaxtdan ciddi əhəmiyyət verməyə başlayıblar. Bildirilir ki, bir çox başqa ideoloji məsələlərdə olduğu kimi, qadın məsələsində də yeni Osmanlı hərəkatının liderlərinin fikirləri qabaqcıl Avropa ideyaları ilə dini İslam konsepsiyaları və Quran ehkamlarının sintezi, daha doğrusu məcmusu idi. Ona görə də onlar burjua feminizmi ideyalarını İslam dinindən götürərək ailə problemlərinə, qadın məsələsinə İslamın müasirləşməsi prizmasından baxırdılar (4, s.2).

2022-ci il noyabrın 30-da Şərqşünaslıq İnstitutunda görkəmli şair və dramaturq Hüseyn Cavidin 140 illiyinə həsr olunmuş "Hüseyn Cavid yaradıcılığı Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələri kontekstində" mövzusunda elmi sessiyada Ülviyyə Eminova "Hüseyn Cavid və Əbdülhaq Hamid Tarhan dramlarında qadın hüquqları problemi" mövzusunda məruzə edib. Hüseyn Cavid yaradıcılığında qadın probleminin öz aktuallığı və orijinallığı ilə seçildiyini, böyük ədibin ədəbiyyata qədəm qoyduğu ilk zamanlardan qadın məsələsinə maraq göstərərək, bu aktual mövzunu istər şeirlərində, istər də dram əsərlərində önə çəkdiyini vurğulayan məruzəçi, bir çox dramları qadın surətlərin adları ilə adlandıran Cavidin qadınları öz hüquqları uğrunda fəal mübarizəyə səslədiyini və qadınlara öz hüquqlarını əldə etməyin yolunun maariflənmədə, mədəni tərəqqidə olduğunu göstərdiyini qeyd edib. Ü.Eminova bu baxımdan Cavidin bir sıra əsərləri ilə türk şairi Əbdülhaq Hamid Tarhanın əsərlərinin müqayisəli təhlilini aparıb.

Həmçinin filologiya üzrə fəlsəfə doktoru Barat Osmanovanın 2010-cu ildə Şərqşünaslıq İnstitutunun «Şərq filologiyası məsələləri» məqalələr məcmuəsində çap olunmuş "Orxan Vəli şerlərində eşq və qadın" adlı məqaləsində, Ülkər Səmədovanın 2016-cı ilin sentyabrında AMEA-nın Şərqşünaslıq İnstitutunda I Türkoloji Qurultayının 90 illiyi münasibətilə keçirilmiş "Müasir türkoloji tədqiqatlar: problemlər və perspektivlər" adlı konfransda "Tənzimat dövrü türk romanlarında qadın mövzusu", 2022-ci ilin noyabrında filologiya üzrə fəlsəfə doktoru Təranə Həşimovanın "Türk xalqları ədəbiyyatı: ədəbi əlaqələr, ədəbi təsir və tərcümə" adlı simpoziumda "Azərbaycan və özbək dastanlarında qadın" mövzusunda məruzələrində də qadın probleminə nəzər salınıb.

## Nəticə

Bütün bu diqqətə çəkilən faktlar Şərqşünaslıq İnstitutunda qadın məsələlərinin daim alimlərin diqqət mərkəzində olduğunu göstərir. Türkiyə və Mərkəzi Asiya ölkələrinin ədəbiyyatı və ictimai fikrinə dair Azərbaycan şərqşünaslığında əhəmiyyətli tədqiqatlar aparılıb və türkoloq alimlərimizin bu sahədə gender probleminin qoyulması məsələsinə dair dəyərli araşdırmaları var. Şərqşünaslıq İnstitutunun türkoloqları öz tədqiqatlarında qadınların üzləşdiyi problemlər, gender bərabərliyi, qadın hüquqları, qadın azadlığı məsələləri ilə bağlı məqamları dərindən təhlil edərək, bu mövzuda tədqiqatlarını, məqalələrini, məruzələrini elmi ictimaiyyətə çatdırmışlar və institutda bu sahədə tədqiqatlar yekunlaşmamış, yeni-yeni istiqamətlər müəyyənləşdirilməklə davam etdirilir.

## ƏDƏBİYYAT


1. Gündoğdu S. "Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü", Bakı, R.M.Kompani, 2012, 228 s.
2. Qasımlı S. "Türkiyə ədəbiyyatında yeni hekayəçilik", Bakı, 2019, 272 s.
3. Abdullayeva X. "Türkiyə romanında qadın imzası" // "Şərq araşdırmaları", Bakı, 2019, № 1, s.112-119)
4. Гасанова Э. Женский вопрос в общественной мысли Турции (конец XIX – начало XX вв.) // "Azərbaycan şərqşünaslığı", Bakı, 2014, № 1 (11), s.2-6


## РЕЗЮМЕ

***Вугар МАМЕДОВ***

***Женская тема в азербайджанской тюркологии***

***Ключевые слова:*** *тюркология, женский вопрос, гендерная проблема, гендерное равенство, права женщин*

Тема женщины в общественной мысли и литературе Турции и стран Средней Азии всегда была в центре внимания тюркологов. Ряд турецких писателей, отводивших в своих произведениях особое место проблемам женщин, стремились донести до читателя свои взгляды на роль женщин в семье и обществе, проблемы, с которыми они сталкиваются в семье и обществе, искусственные препятствия, с которыми они сталкиваются.

В данной статье анализируется исследования, проведенные в Институте востоковедения имени академика З.М.Буниядова НАНА, связанные с обсуждаемой темой, в частности, в монографии «Художественное отражение социальных проблем в творчестве Мехмеда Акифа Эрсоя» Сарии Гюндогду, в книге «Новое рассказоведение в тюркской литературе» Садагат Гасымлы и в ее исследовании «Новое турецкое рассказоведение и социальные проблемы», в диссертации Ханум Абдуллаевой «Становление и развитие жанра романа Турецкой литературе XIX века», в исследованиях Айсель Велиевой «Женский фактор в странах Центральной Азии в годы независимости» и Хумай Мамедовой «Отношение к женщине в романах турецких писательниц (дореспубликанский период)».

В статье также рассматривается статьи, написанные учеными-тюркологами Института востоковедения по данной теме, а также доклады, представленные на международных научных конференциях.

## SUMMARY

***Vugar MAMMADOV***

***Topic of Woman in the Azerbaijani Turkology***

***Keywords:*** *Turkology, the topic of woman, gender issue, gender equality, women's rights*

The topic of women in the public opinion and literature of Turkey and Central Asian countries has always been the focus of our Turkology scholars. A number of Turkish writers who gave a special place to women's problems in their works tried to convey to the reader their views on the role of women in the family and society, the problems they face in the family and society, and the artificial obstacles they face.

This article deals with the researches conducted at the Institute of Oriental Studies, named after Academician Z.Bunyadov of ANAS related to the topic of women. In this regard it analyzes Sariyya Gundoghdu's monograph "Artistic representation of social problems in the works of Mehmed Akif Ersoy", Sadagat Gasimli's book "New storytelling in Turkish literature" and her research work "New Turkish storytelling and social problems", Khanim Abdullayeva's dissertation "19th century Turkish literatureformation and development of the novel genre", Aysel Valiyeva's "Women's factor in Central Asian countries during the years of independence", and Humay Mammadova's research "Attitude towards women in the novels of Turkish women writers (pre-Republic period)". The article also mentions the articles written by Turkology scholars of the Institute of Oriental Studies on this topic, as well as their conference papers presented at a number of international scientific conferences.